• YENİ NƏŞRLƏR •

Azərbaycan dilini öyrənmək istəyən əcnəbilər üçün dərs vəsaitləri

Mayıl B. Əsgərov
Filologiya elmləri doktoru, AMEA Dilçilik İnstitutunun Sosiolinqvistika və Psixolinqvistika şöbəsinin müdiri, Bakı Avrasiya Universitetinin professoru.
E-mail: mayil62@yandex.com

AMEA Nəsimi adına Dilçilik İnstitutunda həyata keçirilən «Salam, Azərbaycan» adlı layihənin əsas məqsədi Azərbaycan dilini öyrənmək istəyən əcnəbilər üçün dünya standartlarına uyğun A, B, C səviyyələri üzrə dərs vəsaitləri dəsti hazırlamaqdır. Dərs vəsaitləri dəstindən, əsas etibarilə, Azərbaycanın elmi-tədqiqat institutlarında və ali məktəblərində doktorantura, magistratura və ya bakalavr səviyyələrində təhsil almaq istəyən əcnəbilər, eləcə də Azərbaycan dilini əsaslı şəkildə öyrənmək istəyən digər şəxslər istifadə edə bilər.

XIX əsrin ortalarından bu günə qədər Azərbaycan dilini öyrənmək istəyən əcnəbilər üçün peşəkar səviyyədə 5 (beş) dərs vəsaiti və ya dərs kitabı hazırlanmışdır. Onlardan ilk üçü yalnız ruslar üçün hazırlanmış kitablardır, son ikisi isə bütün əcnəbilər üçün nəzərdə tutulan dərs vəsaitləri dəstidir.

Əcnəbilər üçün *ilk vəsait* Kazan Universitetində – Mirzə Kazımbəy tərəfindən hazırlanan «Türk-tatar dilinin qrammatikası» kitabıdır. Bu kitab sırf elmi qrammatikadır. Onun ilkin variantı 1839-cu ildə, əlavə və düzəlişlər edilmiş ikinci variantı isə 1846-cı ildə nəşr edilmişdir.

İkinci vəsait Nəriman Nərimanov tərəfindən hazırlanan *ruslar üçün «Azərbaycan dili»* kitabıdır. Əslində, bu kitab danışıq kitabı formasında idi.

Üçüncü vəsait Yusif Seyidov tərəfindən hazırlanan «Azərbaycan dili» kitabıdır. Bu dərslik Azərbaycan ali məktəblərinin rus bölmələri üçün nəzərdə tutulmuşdur. Həmin kitabın 13-cü nəşri 2014-cü ildə çapdan çıxmışdır.

Dördüncü vəsait Azərbaycan Dillər Universitetində – Səbinə Əliyeva, Kifayət Hacıyeva, İradə Vahabova tərəfindən hazırlanan və üç hissədən ibarət olan *Xaricilər üçün «Azərbaycan dili»* dərs vəsaitləri dəstidir. Bu dərs vəsaitləri dəstinin üçüncü hissəsi 2013-cü ildə nəşr olunmuşdur.

Beşinci vəsait Bakı Dövlət Universitetində – Gülheyran Rəhimova, Elmira Fərəcullayeva, Məhbubə Qurbanova, Reyhan Həbibli tərəfindən hazırlanan

Əcnəbi vətəndaşlar üçün «Azərbaycan dili» dərsliyidir. Bu dərsliyin ayrıca iş dəftəri və CD diski də vardır. Kitab 2016-cı ildə çap edilmişdir.

Bundan başqa, Azərbaycan dilini öyrənmək istəyən əcnəbilərə kömək məqsədi daşıyan həvəskar səviyyəli bəzi vəsaitlər, eləcə də tamamlanmamış dərsliklər də vardır:

• Xəzər Universitetində – Elza İsmayılova, «Əcnəbilərə Azərbaycan dilinin tədrisində oxu dərslərinin təşkili və yazılı rabitəli nitqin inkişafı», 2005, həcmi 29 səhifə;

• İqtisad Universitetində – Maarifə Hacıyeva, Tofiq Əbülhəsənli tərəfindən hazırlanan *Azərbaycan dili – türk tələbələr üçün dərslik,* Bakı 2011;

• Khuduzarov T.M., Sadikhova Y.M. tərəfindən hazırlanan *xaricilər üçün Azərbaycan dili, başlanğıc səviyyə* və s.

Azərbaycan Respublikası Prezidentinin 9 aprel 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilən *Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair* Dövlət Proqramının 3.1.3, 4.1.14 və 6.4.3-cü maddələrinin, eləcə də, ölkə Prezidentinin 17 iyul 2018-ci il tarixli *«Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında»* Sərəncamından irəli gələn vəzifələrin icrası ilə bağlı Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunda *«Salam, Azərbaycan!»* adlı layihə həyata keçirilir.

«Salam, Azərbaycan» adlı bu layihənin əsas məqsədi Azərbaycan dilini öyrənmək istəyən əcnəbilər üçün dünya standartlarına uyğun olaraq A, B, C səviyyələri üzrə dərs vəsaitləri dəsti hazırlamaqdır. Layihənin elmi-nəzəri bazasını «Linqvo-psixoloji vəhdət nəzəriyyəsi» təşkil edir. Bu nəzəriyyə Azərbaycan dilçiliyi tarixində dilin psixologiyasına həsr olunan tam təşəkküllü ilk müstəqil nəzəriyyədir. Həmin nəzəriyyənin tətbiqi ilə Dövlət Proqramının 4.1.14-cü maddəsi, yəni *Azərbaycan dilini öyrənən xarici vətəndaşlar üçün dərs vəsaitlərinin hazırlanması* müddəası reallaşdırılır.

Hal-hazırda A və B səviyyələri təqdim edilən bu vəsaitlər dəsti Azərbaycan dilini rus və ingilis dilləri bazasında öyrənmək istəyən əcnəbilər üçün nəzərdə tutulmuşdur. Bu dərs vəsaitləri dəsti hər dil üzrə beş kitabdan ibarətdir *(Şəkil-1, Şəkil-2)*.

Dərs vəsaitləri dəstindən, əsas etibarilə, Azərbaycanın elmi-tədqiqat institutlarında və ali məktəblərində doktorantura, magistratura və ya bakalavr səviyyələrində təhsil almaq istəyən əcnəbilər, həmçinin, Azərbaycan dilini əsaslı şəkildə öyrənmək istəyən digər şəxslər istifadə edə bilər.

«Salam, Azərbaycan» adlı layihə bazasında hazırlanan dərs vəsaitləri dəstinin indiyə qədər mövcud olan dərslik və dərs vəsaitlərindən fərqli cəhətləri aşağıdakılardır:



Şəkil-1. **Azərbaycan dilini ingilis dili bazasında öyrənmək istəyən əcnəbilər üçün hazırlanmış dərs vəsaitləri**

1. İndiyə qədər mövcud olan digər dərs vəsaitlərində Azərbaycan dilinə aid qayda və normalar ya ümumiyyətlə izah olunmamış (Mirzə Kazımbəyin qrammatikası istisna olunmaqla), ya da qısa şəkildə və sadəcə Azərbaycan dilində bəzi izahatlar verilmişdir. Hansı mövzunun hansından sonra və ya hansı ilə eyni vaxtda verilməsi məsələsi isə, ümumiyyətlə, nəzərə alınmamışdır. Bu səbəbdən də dil öyrənən əcnəbilər Azərbaycan dilinə aid əksər qaydaların mahiyyətini anlamamış və öz nitqində onlardan istifadə edə bilməmişlər.

«Salam, Azərbaycan» adlı layihə bazasında hazırlanan bu dərsliklər dəstində Azərbaycan dilinin qaydaları dil öyrənən şəxslərin ana dilində, yəni rus və ya ingilis dillərində ayrıca kitab şəklində verilmişdir. Qrammatik qaydalar sadədən mürəkkəbə, vacibdən ikinci dərəcəliyə doğru istiqamətlənir və səviyyələr üzrə izah edilir. Hansı qaydanın hansından sonra və ya hansı ilə eyni vaxtda verilməsi



Şəkil-2. **Azərbaycan dilini rus dili bazasında öyrənmək istəyən əcnəbilər üçün hazırlanmış dərs vəsaitləri**

xüsusi linqvo-psixoloji proqram əsasında müəyyən edilir. Dilin hər bir qaydası müstəqil bir gerçəklik vahidi kimi təqdim olunur. Qarşı tərəfin onu tam şəkildə mənimsəyə bilməsi üçün qaydanın bütün detalları ətraflı şəkildə izah edilir. Həmin qrammatik izahlar faktiki dil nümunələri ilə yaddaşda möhkəmləndirilir. Bundan başqa, hər dərsdə keçilən qrammatik qaydaları və mətnləri daha yaxşı mənimsəmək üçün onlarla bağlı tərtib edilən 80-100 cümlə əcnəbi dildən Azərbaycan dilinə tərcümə olunur. Hər dərsdə əvvəlki qaydaların və mətnlərin təkrarına aid daha 40-50 cümlə əcnəbi dildən Azərbaycan dilinə tərcümə edilir.

2. İndiyə qədər mövcud olan digər dərs vəsaitlərində mətnlər hazır şəkildə bədii ədəbiyyatdan götürülmüşdür. Onların keçilən qrammatikaya uyğunluğu və hətta dil öyrənən şəxslərin dil biliyi səviyyəsinə uyğun olub-olmaması məsələsi nəzərə alınmamışdır.

«Salam, Azərbaycan» adlı bu layihə bazasında hazırlanan dərsliklər dəstində *oxu mətnləri* və *dialoqlar* ayrıca kitab şəklində verilir. Onlar müvafiq dərsdə keçilən qrammatik mövzularla birbaşa bağlıdır və onların şərhinə xidmət edir. Həmin mətn və dialoqlarda yalnız keçilmiş və izah olunmuş söz formalarından, söz birləşmələrindən istifadə edilir. Mətn və dialoqlarda dil öyrənən şəxslər izah edilməyən və ya məlum olmayan formaya, birləşməyə və ya struktura rast gəlmirlər. Həmin mətn və dialoqlar sadə həyat hadisələrindən başlayıb mürəkkəb məsələlərə doğru inkişaf etməklə əcnəbiləri həm müasir Azərbaycanla, həm Azərbaycan reallıqları ilə, həm də onun tarixinin bəzi məqamları ilə tanış edir. Bu kitabda hər dərsdə keçilən qrammatik qaydaları və mətnləri daha yaxşı mənimsəmək üçün onlarla bağlı Azərbaycan dilində tərtib edilən 80-100 cümlə üzərində müvafiq tapşırıqlar yerinə yetirilir. Hər dərsdə əvvəlki qaydaların və mətnlərin təkrarına aid olan daha 40-50 cümlə üzərində iş aparılır.

3. İndiyə qədər mövcud olan digər dərs vəsaitlərində çox vaxt daxili bölgü və səviyyə məsələsi, ümumiyyətlə, nəzərə alınmamışdır. Bəzi dərs vəsaitlərində A, B, C səviyyələri kimi formal bölgülər olsa da, çox vaxt sadə və mürəkkəb qaydaların ümumi sırası pozulmuşdur. Həmin dərsliklərdə əsas diqqət paraqraf sayının və ya səhifə həcminin mütənasib olmasına yönəldilmişdir.

«Salam, Azərbaycan» adlı bu layihə bazasında hazırlanan dərsliklər A, B, C səviyyələri üzrə tərtib olunmuşdur:

A səviyyəsini, yəni *başlanğıc səviyyəni* mənimsəyən şəxslər Azərbaycan dilində gündəlik məişət ehtiyaclarına uyğun səviyyədə ünsiyyət qura bilərlər. Bu səviyyəni 60-70% mənimsəyən əcnəbilər Azərbaycan Respublikasında peşəkar ünsiyyət tələb etməyən fiziki işlərlə də məşğul ola bilərlər.

A və B səviyyələrini, yəni *başlanğıc və orta səviyyəni* 70-80% mənimsəyən əcnəbilər Azərbaycan Respublikası ərazisində peşəkar ünsiyyət tələb edən işlərdə də çalışa bilərlər.

A, B, C səviyyələrini, yəni *başlanğıc, orta və yüksək səviyyəni* 80-90% mənimsəyən əcnəbilər isə dünyanın istənilən yerində Azərbaycan dilini əcnəbilərə tədris edə bilərlər.

«Salam, Azərbaycan» adlı bu layihə bazasında hazırlanan dərs vəsaitləri dəstində daha iki yeniliyə imza atılmışdır:

Birinci yenilik bundan ibarətdir ki, bu dərsliklərdə Azərbaycan dilinə aid bütün sözlərin vurğusu verilmişdir. Vurğu işarəsi ənənəvi qayda ilə saitlərin üstündə qoyulmamışdır. Dil öyrənən şəxslər vurğulu hecanın sərhədlərini dəqiq bilsinlər deyə, sözlərdəki vurğulu hecanın altından xətt çəkilmişdir.

Bu dərs vəsaitlərindəki *ikinci yenilik* ondan ibarətdir ki, qrammatik qaydalar izah edilərkən sözlərə artırılan şəkilçiləri bir-birindən fərqləndirmək üçün onlar müxtəlif rənglərlə verilmişdir.

«Salam, Azərbaycan» adlı bu layihə bazasında hazırlanan dərsliklərdə şərh

edilən qrammatik qaydaları audio və ya video formatda diktor mətninə, qaydalara aid nümunələri animasiyaya, bəzi çalışmaları isə interaktiv və saund tapşırıqlara çevirmək mümkündür. Bu işlərin icrası üçün tələbata uyğun miqdarda maliyyə vəsaiti olarsa, həmin dərs vəsaitlərini qısa müddət ərzində interaktiv elektron vasitəyə çevirmək və internetə yerləşdirməklə milyonların istifadəsinə vermək mümkündür. Başqa sözlə desək, bu layihə bazasında hazırlanan dərsliklər elektron interaktiv vasitəyə çevrilməyə ən uyğun və yaxın olan dərs vəsaitləridir.

Bunu da qeyd edək ki, təqdim edilən dərs vəsaitləri indiki kitab versiyası ilə də Azərbaycan dilinin əcnəbilərə öyrədilməsi işinə xidmət edən ən müasir dərs kitablarıdır.

Təhsil almaq və işləmək məqsədi ilə Azərbaycan Respublikasına gələn əcnəbilərin Azərbaycan dilini öyrənməsi üçün xüsusi mərkəz yaratmaq, dil öyrənmə kursları təşkil etmək və yaxud da mövcud təhsil müəssisələri bazasında bu dərs vəsaitlərinin köməyi ilə dilimizi onlara öyrətmək mümkündür.

Azərbaycan dilini və dolayısı ilə Azərbaycanı dünyada təbliğ edən bu dərs vəsaitləri dəstini kütləvi tirajla nəşr edib Azərbaycan Səfirlikləri, Konsulluqları, Diaspora təşkilatları xətti ilə xarici ölkələrdə yaradılmış «Azərbaycan evləri»ndə və digər bənzər mərkəzlərdə dilimizi əcnəbilərə və digər şəxslərə tədris etmək mümkündür.

Bu kitabların çapını təşkil etdiyinə görə Dilçilik İnstitutunun direktoru akademik Möhsün Nağısoyluya təşəkkür edirik. Layihənin icrasında bizə əməli şəkildə kömək edən institut əməkdaşlarına, şəxsən f.ü.e.d., professor İlham Tahirova, f.ü.e.d., dosent Gülsüm Hüseynovaya, f.ü.f.d., dosent Aynel Məşədiyevaya, f.ü.f.d., dosent Aytən Bəylərovaya, f.ü.f.d., dosent Gülrux Həsənovaya, f.ü.f.d. Zülfiyə Musaviyə, k.e.i. Şahanə Atakişiyevaya, k.e.i. Sevinc İsmayılovaya, baş lob. Pərvin Qarayevaya, kom. op. Jalə Əsgərzadəyə, eləcə də institutun sabiq kiçik elmi işçisi Mələk Əliyevaya dərin təşəkkürümüzü bildiririk.